Deloitte.

# Biznes Transformasiyası
## Şəffaf uçotun qurulmasında peşəkar dəstək



## Giriş

Son dövrdə ölkə miqyasında şəffaflığın artırılması ilə bağlı aparılan islahatlar, uzun müddət diqqətdən kənarda qalan mühasibat və vergi uçotunun düzgünlüyünə dair tələblərin sərtləşməsi və nəzarət mexanizmlərinin işə salınması bu sahədə qanunvericiliyin tələblərinə əməl edilməsini daha da zəruri etmişdir.

Baş verən dəyişikliklərə adekvat reaksiya göstərmək, həmçinin maliyyə itkiləri və reputasiya risklərinə məruz qalmamaq üçün sahibkarlıq subyektləri mövcud biznes modellərini bir daha nəzərdən keçirməlidir.

Biznesin Transformasiyası – vergi uçotunun dürüst və effektiv qurulması, həmçinin mühasibat uçotunun Beynəlxalq Mühasibatlıq Standartlarına uyğunlaşdırılması biznesin şəffaflığına və daxili nəzarətin gücləndirilməsinə doğru atılan ilk addımdır.

16 ildir Azərbaycan bazarında fəaliyyət göstərən Deloitte şirkəti artıq iki ildən çoxdur ki, yüksək ixtisaslı və geniş təcrübəyə malik mütəxəssisləri ilə öz müştərilərinə Biznesin Transformasiyası sahəsində hər tərəfli dəstək göstərir.

## Biznesin Transformasiyasından nə gözləməli?

- Şirkətin biznes əməliyyatlarına uyğun effektiv və qanunvericiliyə uyğun olan vergi uçotunun qurulması
- Şirkətin mühasibat uçotunun bərpası və bu sahədə Beynəlxalq standartlara keçidin təmin edilməsi
- Bütün alternativ uçot sistemlərinin ləğvi və vahid uçotun qurulması
- Şirkətin vergi və maliyyə funksiyalarının işinin effektivliyinin artırılması
- İdarəçilik hesabatlılığının dürüstlük səviyyəsinin artırılması
- Maliyyə hesabatlarının Beynəlxalq Standartlara uyğun hazırlanması və kənar auditorun yoxlamasına hazırlıq
- Ucuz maliyyələşmənin təmin edilməsi

## Əsas addımlar üzrə yol xəritəsi

Biznes transformasiyası xidmətləri çərçivəsində görüləcək işlər əvvəlcədən razılaşdırılmış müddətdə müştərinin ehtiyacları nəzərə alınmaqla bir qayda olaraq aşağıdakı yol xəritəsinə uyğun aparılır:

**01** Uçot proseslərinin diaqnostikası və çatışmazlıqların aşkar edilməsi

**02** İnsan resurslarının texniki səviyyəsinin və işçi sayının adekvatlığının qiymətləndirilməsi

**03** Aparılmış yoxlamanın nəticələrinin müzakirəsi və aşağıdakılar daxil olmaqla aktual problemlərin həlli üzrə tədbirlər planının müəyyən edilməsi:
- Aktivlərin və öhdəliklərin ilkin qalıqlarının bərpası və uçotda düzgün əks etdirilməsinin təmin edilməsi
- Əsas vəsaitlərin qiymətləndirilməsi və nizamnamə kapitalında zəruri dəyişikliklərin aparılması
- Zərurət yaranarsa hüquqi şəxsin yenidən təşkili
- Dəyişikliklərin mal və xidmətlər üzrə maya dəyərinə təsiri ilə bağlı tövsiyə verilməsi

**04** Vergi uçotu üzrə metodologiyanın hazırlanması

**05** Mühasibat uçotu haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) uyğun uçot siyasətinin formalaşdırılması

**06** Uçot proseslərin avtomatlaşdırılması və uçotun effektivliyinin artırılması məqsədilə İT həllərinin müəyyən edilməsi.
Bu qəbildən olan tədbirlərə aşağıdakılar aiddir:
- Əmək haqqı, debitor və kreditorlarla hesablaşmaların avtomatlaşdırılması
- Fakturalama və elektron qaimə-faktura proseslərinin avtomatlaşdırılması
- Mühasibatlıq proqramı ilə internet bankçılığın inteqrasiyası
- Ciddi hesabat blanklarının tərtibi və təsdiqi prosesinin avtomatlaşdırılması və s.

## Siz nə əldə edirsiniz?

Biznes Transformasiyası xidmətimizin nəticəsində siz aşağıdakıları əldə edirsiniz:

- Qanunvericiliyə əməl etmənin təmin edilməsi nəticəsində maliyyə itkilərinin və reputasiya risklərinin minimuma endirilməsi
- Effektivliyin artırılması – daha az resurslarla daha mükəmməl uçot
- Güclü nəzarət sistemi və səhmdarlar üçün daha aydın hesabatlılıq
- Ucuz maliyyələşmənin cəlb edilməsi və beynəlxalq bazara çıxış imkanları

## Bizi nə fərqləndirir?

**01** Azərbaycan bazarında Biznesin Transformasiyası və uçotun qurulması sahəsində ən geniş yerli təcrübə

**02** Vergi və mühasibatlıq sahəsində təkmilləşdirilmiş və mühasibatlıq üzrə beynəlxalq səviyyədə sertifikatlaşdırılmış (ACCA) peşəkar işçi heyəti

**03** Qlobal şirkət olaraq beynəlxalq resurslara çıxış

**04** Ehtiyacınız olan bütün növ xidmətlərin bir peşəkar şirkətdə cəmləşdirilməsi

## Sualınız var?
## Biz sizə kömək edə bilərik



**Nuran Kərimov**
**Partnyor**
Vergi və Hüquq Departamenti
Tel: +994 (12) 404 12 10
nkerimov@deloitte.az



**Rəna Xəlilova**
**Baş menecer**
Vergi və Hüquq Departamenti
Tel: +994 (12) 404 12 10
rkhalilova@deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 330,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

© 2021 Deloitte & Touche MMAC. Bütün hüquqlar müdafiə olunub.